BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2012*

**UOT 94 (479.24)**

# I DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASININ BAKI ŞƏHƏRİNİN ƏRZAQLA TƏCHİZATINDA YARATDIĞI PROBLEMLƏR VƏ BUNUNLA ƏLAQƏDAR GÖRÜLƏN TƏDBİRLƏR

**R.İ.NƏBİYEV**
***Gəncə Dövlət Universiteti***
***ruslannabiyev@mail.ru***

*Məqalədə I Dünya müharibəsində Bakı şəhərinin ərzaqla ehtiyacından yaranan problemlər və bununla əlaqədar görülən tədbirlərdən bəhs edilir. Məqalədə mövcud ədəbiyyat və geniş qaynaqların təhlili əsasında ərzaq təchizatının yaratdığı problemlər və bununla bağlı görülən tədbirlər faktlar əsasında tədqiq edilmişdir.*

**Açar sözlər:** Bakı, ərzaq təchizatı, ərzaq məsələsi, ərzaq komitəsi

I Dünya müharibəsi bütün Rusiya imperiyasının sosial-siyasi və iqtisadi həyatına ağır və dağıdıcı təsir göstərsə də, bu müharibənin başlanması imperiyanın bütün bölgələrində, xüsusən də müharibə cəbhələrindən uzaq olan ucqarlarda eyni əks-səda doğurmadı.

Əlbəttə ki, digər müstəmləkə ucqarlarında olduğu kimi, Quzey Azərbaycanın da inzibati idarələri imperiyanın avantüristcəsinə qoşulduğu bu müharibəyə tam laqeyd qala bilməzdi. Təsadüfi deyildir ki, müəllifi Bakı şəhər idarəsi olan 28 iyul 1914-cü il tarixli sənədlərin birində deyilirdi: “Son günlərin hadisələrinin doğurduğu indiki anda, on minlərlə əhalinin başsız və yaşamaq üçün hər hansı vəsaitsiz qaldığı, bunlarla yanaşı pərakəndə satışda gündəlik tələbat mallarının xeyli və günbəgün artan bahalaşmasının müşahidə olunduğu, burada adamların qidalanması və həyati azuqələrlə təmin olunması məsələsini fövqəladə xarakter aldığı bir vaxtda Şəhər İdarəsi bu məsələyə biganə qala bilməzdi” (1, v.1).

Müharibənin ilk günlərinin hərbi-təşkilati işlərin həyata keçirilməsi ilə bağlı olan tədbirlərin və bir sıra hallarda psixoloji amillərin nəticəsində yaranan qarışıqlıqlara və qıtlığa baxmayaraq Bakının ərzaq təminatında elə bir böyük dəyişikliklər olmamışdır. Çoxsaylı mənbələr və ədəbiyyatın məlumatları da göstərir ki, müharibənin ilk aylarında şəhərin ərzaq təchizatında elə bir böyük çətinlik hiss olunmurdu. Bu baxımdan ümumi vəziyyət və onun ardıcıl

dəyişməsi, fikrimizcə, Bakı qubernatoru Alışevskinin 1914-cü il üçün hesabatında daha dəqiq əks olunmuşdur. Bakı qubernatoru çara yazırdı: "Ümumi səfərbərlik günlərində ümumi sərnişin və yük daşımalarının labüd olan müvəqqəti dayanmasından başqa zəruri ərzaq və yüklərin gətirilməsində elə bir çətinlik müşahidə olunmurdu. Ancaq dekabrda yeyinti məhsulları və yanacağın daşınmasında getdikcə daha güclü ləngimələr meydana çıxmağa başladı ki, bu da qiymətlərin qalxmasına təsir göstərdi; sonralar vaqonların çatışmazlığı tədricən gücləndi və 1915-ci ilin yazına yaxın normal mal mübadiləsinin bərpası məsələsi xeyli ciddi xarakter aldı" (2, v.5).

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, artıq müharibənin ilk dövrləri göstərdi ki, imperiyanın nəinki təkcə iqtisadiyyatı, həm də onun bütün idarəçilik strukturu belə ciddi imtahana hazır deyildi. Müharibənin ilk dövrlərində aşağıdan yuxarıyadək bütün idarəçilik həlqələrində izahedilməz arxayınçılıq hiss olunurdu. Təsadüfi deyildir ki, iqtisadiyyatın hərbi rejim şəraitinə keçirilməsini təmin edəcək idarəçilik orqanları müharibənin gedişində, arxa cəbhənin ahəngdar işini, əhali və ordunun tələblərini uzlaşdıracaq bir çox müxtəlif orqan və "müşavirələr" isə hətta müharibənin ikinci ilinin gedişində təşkil edilirdi.

Məsələn, bilavasitə bizi maraqlandıran ərzaq təchizatını təşkil və təmin edəcək, bu sahədəki tədbirləri əlaqələndirəcək mərkəzi orqan haqqında əsasnamə ancaq 1915-ci ilin yayında imzalanmışdı. Cəmisi 19 maddədən ibarət olan, 1915-ci il avqustun 17-də Sarskoye Seloda çar tərəfindən imzalanmış "Ərzaq məsələsi üzrə tədbirlərin müzakirəsi və birləşdirilməsi üçün Xüsusi Müşavirə (bundan sonra – "Xüsusi Ərzaq müşavirəsi") haqqında əsasnaməyə görə bu müşavirə Baş əkinçilik və torpaq quruculuğu idarəsinin yanında yaradılmışdır. Onun sədri həmin idarənin baş rəisi (mülki müşavir A.V.Krivoşein) olsa da, sədrin vəzifəsini ordu üçün taxıl tədarükü üzrə baş müvəkkil (məxfi müşavir Q.V.Qlinko) yerinə yetirirdi. İlk dövrlərdə bu xüsusi müşavirəyə Dövlət Şurasına və Dövlət Dumasının hər birindən 7 üzv və 2 namizəd (cəmi 14 üzv və 4 namizəd) daxil idi (3, v.28).

1915-ci il 17 avqust tarixli qanununa əsasən Yollar Nazirliyi yanında Yanacaq, ərzaq və hərbi yüklərin daşınması üzrə tədbirlərin müzakirəsi və birləşdirilməsi üzrə və s. bu kimi xüsusi müşavirələr də yaradılmışdı. Bu müxtəlif xüsusi müşavirələrin Qafqazdakı müvəkkillərinin fəaliyyətini və onları yerli hakimiyyət orqanları ilə işbirliyini əlaqələndirmək və daha kəsərli etmək üçün Qafqaz canişini yerlərdə Qafqaz diyar müşavirəsinin (sədri canişinin mülki hissə üzrə müavini, üzvləri: canişin şurasından 4 nəfər və canişin dəftərxanasının sədri, habelə mərkəzi xüsusi müşavirələrin Qafqaz üzrə müvəkilləri və bir sıra iri Qafqaz məmurları), habelə quberniya müşavirələrinin yaradılmasını təklif etdi. Əslində belə müşavirələrin yaradılması barəsində ilk təşəbbüs Nazirlər Şurasına (1916-cı il 15 yanvar tarixli qərar) məxsus idi (4, v.54). Canişin diyar müşavirəsi haqqında Əsasnaməni (4, v.55) 1916-cı il aprelin 2-də Nazirlər Şurasına təqdim etmiş və bu Əsasnamə on gün sonra təsdiq olunmuşdu.

1915-ci ilin sonuna yaxın Qafqaz idarələri Tiflisdə daha bir müşavirə - Qafqaz diyarında mənzil və ilkin zərurət mallarının qiymətlərinin bahalaşmasını aradan qaldırmağa yönəldilmiş tədbirlərin işlənib hazırlanması üçün xüsusi müşavirə keçirdi (5, v.23, 24). Bu müşavirələrin ərzaq bölməsinin noyabrın 10 – 13-də keçirilən iclasında Bakıdan da 3 erməni (?! – Cənubi Qafqazın ən iri müsəlman-türk şəhərini ancaq ermənilərlə təmsil etdirmək çarizmin milli-müstəmləkəçilik siyasətinin bariz təzahürü idi – müəllif) nümayəndə iştirak edirdi (Bakı şəhər qlavasının müavini Harutyunov, Bakı Dumasının qlasnısı Vermişev və neft sənayeçiləri qurultayı şurasının nümayəndəsi Quliyev – 5, v.23-24).

Qafqaz canişininin 1915-ci il 16 noyabr tarixli təklifi üzrə quberniya və vilayət ərzaq müşavirləri ilə yanaşı mühüm əhəmiyyətli Qafqaz şəhərlərində - Bakı, Tiflis, Vladiqafqaz və Yekaterinodarda da şəhər ərzaq müşavirələri təşkil olundu (5, v.8-11).

Bakıda şəhər qlavasının sədrliyi altında 1915-ci il noyabrın sonu – dekabrın əvvəllərində yaradılan şəhər ərzaq müşavirəsinə əvvəlcə 3, sonra isə 6 duma qlasnısı, habelə digər idarələrin nümayəndələri daxil oldular.

Buraya həmçinin Bakı hərbi-sənaye komitəsinin (N.N.Spektorskoy), neft sənayeçiləri qurultayı şurasının (A.N.Dastakov), Bakı qradonaçalnikliyinin (podpolk. Axmametyev), birja (S.S.Tağıonosov) və şəhərlər ittifaqı (D.L.Kulikovski) komitələrinin, habelə Cənubi Qafqaz dəmiryolu idarəsi (Brjezinski) və quberniya fabrik müfəttişliyinin (A.A.Sredinski) də nümayəndələri təyin edilmişdilər.

Təşkilatçıların fikrincə, bu müşavirlər zəruri məhsullara tələbatı və onların ehtiyatlarını aydınlaşdırmalı, yerlərdə əhalinin təchizatı ilə məşğul olan orqanlara rəhbərlik etməli, ərzaq ehtiyatlarının tədarükü, bu tədarük tədbirlərini maliyyələşdirmək, zəruri tələbat mallarının siyahısını və onların möhkəm qiymətlərini müəyyənləşdirmək, habelə ərzaq təchizatı sahəsində müxtəlif sui-istifadə və pozuntulara qarşı mübarizə ilə məşğul olması idi (5, v.24).

Qeyd etmək lazımdır ki, bu çoxsaylı müşavirə və qurultayların yerlərdə bilavasitə ərzaq təchizatında konkret rolu, demək olar ki, yox dərəcəsində idi. Məsələn, Xüsusi Ərzaq Müşavirəsinin bahaçılıqla mübarizə komissiyasının 1915-ci il 8 sentyabr tarixli iclasında ərzaq problemi ilə əlaqədar olaraq şəhərlərə ssuda verilməsi məsələsini müzakirə edərək belə qərara gəlinmişdir ki, ərzaq məsələlərini həll etmək üçün şəhərlər ssudanı ilk növbədə dövlət xəzinəsindən yox, xüsusi banklardan almalıdır. Dövlət ssudası isə şəhərlərə satış məqsədli ərzaq tədarükü üçün deyil, ancaq ehtiyat üçün tədarük edilən ərzağa görə verilməli, bu ssudaya görə hər il 5% sələm alınmalı və ssuda müharibə qurtarandan ən geci altı ay sonra mütləq geri qaytarılmalıdır.

Və yaxud: 1915-ci il iyulun 11–13-də keçirilən Bahalıqla mübarizə və ordunun təchizatı üzrə iqtisadi qurultayda quberniya və qəzalarda kooperativ komitələrinin yaradılması ancaq tövsiyə olunurdu.

İmperiyanın mərkəzi hökumət orqanları başlıca olaraq müharibənin ehtiyacları ilə məşğul olaraq mülki əhalinin, xüsusən də ucqarların ərzaq təchizatı ilə az maraqlanırdılar. Onlar və yerli Qafqaz idarələri əhalinin ərzaq təchizatı məsələsinə əsasən ixrac və idxalı tənzimləyən bəzi hökumət aktlarının (məsələn, bütöv bir sıra ərzaq məhsullarının ixracının qadağan edilməsi haqqında 1915-ci il 18 fevral tarixli əsasnamə, maliyyə nazirliyinin eyni məzmunlu 1915-ci il 15 iyul tarixli siyahısı, İrana qənd ixracı barəsində Qafqaz idarələrinin 1915-ci il 11–12 noyabr tarixli qərar və s.) verilməsi ilə kifayətlənirdi (6, v.107).

Ümumiyyətlə, bütün müharibə dövrü ərzində imperiyanın müxtəlif mərkəzi orqanlarının fəaliyyəti nəticəsində Bakı şəhərinin ərzaq təchizatı işinə xeyirdən çox zərər dəymişdir. Elə Port-Petrovsk-Bakı dəmir yolunda ərzaq daşınmalarının qadağan edilməsi, Şimali Qafqazda ordu tədarükçüləri tərəfindən Bakı sənayeçi və tacirlərinin fəaliyyətinə törədilən əngəllər və İrana ərzaq ixracı sahəsində mərkəzin tutduğu mövqeyi (bunlar haqqında aşağıda danışılacaqdır – **müəllif**) misal gətirmək kifayətdir.

Birinci dünya müharibəsi dövründə Bakının ərzaqla təchizinin təşkili məsələsi bütövlüklə şəhər özünüidarə orqanlarının və bəzi quberniya təşkilatlarının üzərinə düşmüşdür.

Artıq 1915-ci ilin fevralında Bakı şəhər idarəsi (upravası – müəllif) şəhərin zəruri ərzaq malları ilə təmin edilməsi vəziyyətini, vaxtaşırı olaraq ərzaq ehtiyatlarını müəyyənləşdirmək üçün özünün, inzibati və hərbi idarələrin nümayəndələrindən ibarət xüsusi komissiyanın təşkil edilməsini məqsədəuyğun saydı.

1915-ci il oktyabrın 20–23-də Bakı şəhəri və qradonacalnikliyinin əhalisi və ərzaq ehtiyatları ümumi şəkildə öyrənilmiş, şəhərin gündəlik və aylıq ərzaq ehtiyatları müəyyənləşdirilmişdir (7, v.375).

1916-cı ilin yazında Bakı şəhər idarəsi və şəhər ərzaq müşavirəsi kartoçka sisteminin tətbiqinə hazırlıq işlərinə başlamışdır. Bu məqsədlə şəhər idarəsi artıq kartoçka sisteminə keçmiş şəhərlərə məsləhət üçün müraciət etmiş, Xarkov və Petroqraddan müvafiq cavablar almışdı.

Bakı şəhər ərzaq müşavirəsinin 1916-cı il 26 may tarixli iclasında M.Hacınski qeyd edirdi ki, bütün bu işlər şəhər dumasının tapşırığı üzrə şəhər idarəsi tərəfindən yerinə yetirilmiş, talonu (kartoçka sistemini) birinci olaraq qəndə tətbiq etmək, bunun üçün şəhəri xüsusi hamiliklər tərəfindən idarə olunan rayonlara bölmək nəzərdə tutulmuşdu. Həmin dövrdə şəhər idarəsi iki cür qənd talonu (yoxsullar üçün həftəlik, varlılar üçün 3 aylıq) hazırlayıb tətbiq etməyi nəzərdə tuturdu (8, v.29).

1916-cı ilin yayında Bakı şəhər ərzaq komitəsinin aşağıdakı strukturda layihəsi işlənilib hazırlandı: komitə 4 şöbə - (tədarük, (satınalma), icra-qeydiyyat, mağaza və nəzarət şöbələrindən), mühasibat və kassadan ibarət olmalı idi. Adından göründüyü kimi, 1-ci şöbə müxtəlif firmalarla əlaqəyə girərək daha əlverişli qiymətlərlə və daha keyfiyyətli ərzaq almaq imkanlarını axtarıb

tapmalı, 2-ci şöbə 1-cinin məlumatları əsasında bu malların alınmasını təşkil etməli idi. Mağaza şöbəsi un stoluna, qənd, odun, kartoçka sistemi və s. bürolara (yarımşöbələrə) bölünür və 2-ci şöbədən daxil olan sənədlər əsasında malların qəbulunu, saxlanılmasını, mağazalar və dükanlara bölüşdürülməsini, kartoçka sisteminin tətbiqini, mağazalara və digər satış nöqtələrinə nəzarəti təmin edirdi. Bu şöbə bütün şəhər üzrə hər gün malların alınması və sərf olunması barədə məlumat hazırlamalı idi.

Nəzarət şöbəsi kooperativlər və dükanlara ərzaq satışına nəzarət etməli, daxil olan şikayətlərə baxmalı və qiymətlərin qalxmasının səbəblərini aydınlaşdırmalı idi.

Mühasibat isə 3-cü şöbənin sənədlərini və kassanın orderlərini yoxlamalı, smetalar tərtib etməli və hər ay duma üzvləri qarşısında hesabat verməli idi. Kassa əsasən bank və maliyyə əməliyyatları ilə məşğul olmalı idi.

Müdir, katib və makinaçıdan ibarət rəhbərliyi olan bu komitənin şöbələrində o qədər də çox işçi olmasa da, Ərzaq Komissiyası bu layihəni 1916-cı il iyulun 5-də ancaq 1-ci və 2-ci şöbələri birləşdirmək şərti ilə təsdiq etdi. Şəhər idarəsi isə növbəti gün həmin düzəlişlə razılaşıb layihəni qəti təsdiq etdi (9, v.86).

Lakin sonralar praktika, həyat özünün qarşısıalınmaz təshihlərini etdi və bu şöbələrdən bəziləri çox zəif fəaliyyət göstərdikləri halda, bəziləri geniş, az qala müstəqil strukturlara çevrildilər. Elə komitənin özü də xeyli genişləndi, şöbələrin sayı xeyli artdı. Aşağıda bütün bunların şahidi olacağıq.

Bakı Şəhər Duması da öz tərəfindən hələ 1916-cı il iyunun 21-dəki iclasında şəhərin bütöv ərazisini 20 sahəyə (rayon ərzaq hamiliklərinə) bölmüş və bu hamiliklərin üzvlərini seçmişdir (10, v.1-4). Bu hamiliklərin üzvlərinin siyahıları əsasında aparılmış hesablamalardan əldə edilmiş rəqəmlərə və müşahidə olunmuş bəzi məqamlara diqqəti yönəltmək, fikrimizcə, maraqlı olardı (hesablamalar bizimdir – müəllif): 20 rayon hamiliyinə cəmisi 258 nəfər (ən azı 4 (X rayon), ən çoxu isə 21 (XIII rayon) nəfər) üzv seçilmişdir. Bunların ancaq 79 (bütün üzvlərin cəmi 30 faizindən bir qədər çoxu) nəfəri azərbaycanlılar, daha doğrusu müsəlmanlar idi. 7 rayon üzrə üzvlər arasında bir nəfər belə azərbaycanlı yox idi, 8 rayon üzrə isə onlar üzvlərin yarıdan azını təşkil edirdilər. Deməli, hətta şəhər özünüidarə təşkilatlarının ən aşağı həlqələrində belə çarizmin müstəmləkəçi siyasətinin milli ayrı-seçkilik gözü lap müharibə şəraitində də bir an belə qırpınmadan hər şeyə nəzarət edirdi. Digər tərəfdən Quzey Azərbaycanın mərkəzindəki hamilik üzvləri arasında 67 nəfər erməni (?! – bütün üzvlərin az qala 25 faizi) vardı.

IV rayon üzrə A.M.Stopaninin namizədliyi keçməmiş (arxivdə saxlanılan siyahıda onun familiyasının üzərindən xətt çəkilib), M.Ə.Əzizbəyov isə VI rayon hamiliyi üzvləri arasına düşə bilmişdi.

1917-ci ildə Bakı şəhər ərzaq təşkilatının strukturunda baş verən dəyişikliklərdən biri də Bakının 15 müxtəlif mədən və kənd sahələrini özündə birləşdirən mədən-zavod rayonunda ərzaq işini mərkəzləşdirmiş qaydada sahmana

salmaq üçün şəhər ərzaq komitəsi yanında xüsusi mədən-zavod şöbəsinin yaradılması oldu (2, v.75-77). 1917-ci il iyulun 1-nə olan məlumatlara görə Sabunçu, Balaxanı, Ramana, Zabrat və Suraxanı rayonlarının 149 minlik əhalisinin təxminən 107 min nəfərini əhatə edən, Balaxanı Mərkəzi Ərzaq Komitəsi adlanan bu şöbə həmin ərazidə un və çörək təchizatı məsələləri ilə məşğul olmalı idi.

Şəhərin ərzaq təchizatının idarə strukturunda həmin ildə baş verən digər, özü də, fikrimizcə ən böyük dəyişiklik Bakı şəhər dumasının 1917-ci il 30 noyabr tarixli iclasının qərarı ilə şəhər Ərzaq Komitəsinin bütün işlərinin Dumanın, konkret olaraq şəhər özünüidarə orqanının ixtiyarına götürülməsi oldu (3, v.7). Bu qərara müvafiq olaraq Şəhər Ərzaq Komitəsinin 1917-ci il 1 dekabr tarixli iclası qərara aldı: "Şəhər Ərzaq Komitəsinin işlərinin şəhər özünüidarəsinin ixtiyarına keçdiyi andan şəhər ərzaq komitəsinin bütün funksiyaları dayandırılmış hesab edilsin" (3, v.7). Lakin bu iki qərar əslində ərzaq təchizatı idarəsinin sadəcə tabeçilik istiqamətinin rəsmi şəkildə Dumaya bağlayaraq, işlərin konkret gedişi və təşkilində heç bir keyfiyyət dəyişikliklərinə gətirib çıxarmadı.

Beləliklə, müharibənin ilk günlərində Bakının ərzaq təchizatında elə bir köklü dəyişiklik yaranmasa da meydana çıxmış yeni ictimai-siyasi və sosial-iqtisadi durumun elə ilk mənfi fəsadları mərkəzi və yerli idarəçilik orqanlarında çaşqınlıq yaradıb onları çox çətin vəziyyətə saldı. Odur ki, bu orqanların Bakının ərzaq təchizatı sahəsində müxtəlif yönümlü tədbirləri tələskənlik, səmərəsizlik və qeyri-ardıcıllığı ilə səciyyələndirdi.

### ƏDƏBİYYAT


1. ARDTA, f. 512, s.1, iş. 2.
2. ГИАСФ, ф. 1276, оп. 17, д. 417.
3. ARDTA, f. 457, s.1, iş. 12.
4. ГИАСФ, ф. 457, оп. 1, д. 702.
5. ARDTA, f. 389, s.1, iş. 669.
6. ARDTA, f. 202, s.1, iş. 687.
7. Nəbiyev R.İ. "I Dünya müharibəsi illərində Bakı şəhərinin un və çörək təchizatı". ADPU Xəbərləri, Bakı: ADPU, 2006, №1, s.371-379.
8. ARDTA, f. 512, s.1, iş. 60.
9. ARDTA, f. 510, s.1, iş. 60.
10. ARDTA, f. 389, s.1, iş. 727.


## ПРОБЛЕМЫ ПРОДУКТОВОГО СНАБЖЕНИЯ ГОРОДА БАКУ В СВЯЗИ С НАЧАЛОМ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ И МЕРЫ, ПРЕДПРИНЯТЫЕ С РЕШЕНИЕМ ДАННОЙ ПРОБЛЕМЫ


**Р.И.НАБИЕВ**



### РЕЗЮМЕ

В статье, на основе анализа многочисленных источников, были исследованы меры, предпринятые административными органами управления г. Баку, а также вновь

специально созданных органов по продуктовому снабжению в условиях военного положения. А также анализированы трудности, возникшие с продуктовым снабжением Баку в связи с началом первой мировой войны.

**Кючевые слова:** Баку, снабжение продуктами, вопрос о снабжении продуктами, комитет по обеспечению и снабжению продуктами

## THE PROBLEMS CAUSED BY THE BEGINNING OF WORLD WAR I IN THE FOOD PROVISION OF BAKU CITY AND RELEVANT MEASURES

**R.İ.NABIYEV**

### SUMMARY

The article deals with the measures taken for the food provision of Baku using different sources to investigate administrate organs as well as special food organs created in the period of war.

The hard condition of food provision of Baku city in the beginning of World War I is also highlighted in the article.

**Key words:** Baku, food provision, food issue, food committee